# İNFORMASİYA CƏMİYYƏTİ VƏ MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMLƏRİ

**A.Qurbanov**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı,***
***Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent***
**azad kurbanov@mail.ru**
**G.Qasımzadə**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaçılıq-informasiya fakültəsinin magistrantı***

*Məqalədə informasiya cəmiyyətində Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin fəaliyyəti təhlil olunur. Yeni cəmiyyətdə onların vəzifələri və bu vəzifələrin yerinə yetrilməsi üçün görülməli olan işlər haqda məlumat verilir.*

**Açar sözlər:** *informasiya cəmiyyəti, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri, formal və qeyri formal təhsil, informasiyanın əlyetərliyi*

Keçən əsrin 70-ci illərində kütləvi kitabxanalrın idarə edilməsinin səmərəliyini artırmaq məqsədilə yaradılan Mərkəzləşdirilmiş Kitabxana Sistemləri fəaliyyət göstərdiyi ərazi və ya regionda müxtəlif formada və daşıyıcılarda kitabxana-informasiya resurslarını və xidmətləri təklif etməklə ayrı-ayrı vətəndaşların və qrupların təhsil, informasiya sahəsində tələbatını ödəyir, şəxsiyyətin inkişafını, istirahət və asudə vaxtını təmin edir.

Mərkəzləşdirilmiş Kitabxana Sistemləri ölkəmizdə qurulan informasiya cəmiyyətinin baza prinsiplərindən olan vahid informasiya mühitinin yaradılmasında və cəmiyyətin bilik və peşə hazırlığının yüksəldilməsində əvəzsiz xidməti vardır. Bu səbəbdən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin əsas vəzifələrindən biri bütün səviyyələrdə formal və ya qeyri-formal təhsilə dəstək göstərməkdir. Qeyd edək ki, formal və qeyri-formal təhsil termini müasir pedoqogikada və sosiologiyada istifadə edilir. Formal təhsil sistemli formada cəmiyyətin təsis etdiyi təhsil müəsisələr vasitəsilə normativ sənədlər, tədris proqramları əsasında həyata keçirilir. Qeyri-formal təhsil sosial təlabatdan doğaraq fərdin müstəqil olaraq bilik və bacarıqlara yiyələnməsi prosesi olub, şəxsiyyətin ümumi mədəni səviyyəsinin yüksəlməsində, karyerasının inkişafında mühüm rol oynayır.

Vətəndaşlarımız həyatlarının ilk illərində məktəbəqədər hazırlıq müəsisələrində, müxtəlif təyinatlı məktəblər, kolleclər və ya universitetlərdə formal təhsil alırlar və baza bilik və bacarıqlar əldə edirlər. Sonradan əmək fəaliyyətindən və ya gündəlik həyatdan doğan informasiya tələbatı insanlar üçün qeyri-formal təhsili qaçılmaz edir. Xüsusilə, cəmiyyət inkişaf etdikcə, əmək





bazarında əqli əmək fiziki əməyi sıxışdırdıqca qeyri-formal təhsilin əhəmiyyəti durmadan artır. Beləliklə, cəmiyyət üzvlərinin böyük əksəriyyəti üçün təhsil "qurtarmır", bu proses onların bütün həyatı boyu davam edir. Mərkəzləşdirilmiş Kitabxana Sistemləri formal və qeyri-formal təhsil proseslərini dəstəkləməklə, təhsil sisteminin təşkilinə komək göstərir, sistemləşmiş formada bilik və bacarıqları, yaş və maraq xüsusiyyətindən asılı olaraq təhsilə cəlb olunmuş cəmiyyət üzvlərinə təqdim edir.

İnformasiya cəmiyyətində istər formal istərsə də qeyri-formal təhsil zamanı yeni, dəqiq informasiyaya tələbat Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin informasiya resurslarının forma və məzmun cəhətdən zənginliyini, mobilliyini təmin etməklə yanaşı, bu resursların operativ şəkildə tələbatçılara çatdırılmasını zəruri edir. Bundan əlavə Mərkəzləşdirilmiş Kitabxana Sistemləri xüsusilə qeyri-formal təsil zamanı tələbtçılara tədris resurslarını effektiv şəkildə istifadə etməkdə onlara kömək etməli və bunun üçün lazımi texniki-proqram vasitələrindən istifadə etməklə, əlverişli xidmət növləri təqdim erməlidir.

Digər mühüm məsələ təhsil prosesi zamanı müxtəlif forma və təyinatlı informasiya resurslarına əlyetərliyin təmin edilməsidir. Tədris və elmi ədəbiyyata çıxış imkanının olması və ondan effektiv istifadə etmək müvəffəqiyyətli təhsil üçün böyük məna kəsb edir. Bu səbəbdən Mərkəzləşdirilmiş Kitabxana Sistemləri inteqrasiya üçün hazır olmalıdır. Bunun üçün ilk növbədə onun informasiya resursları və informasiya sistemləri Beynəlxalq kitabxana-informasiya və İSO standartlarına cavab verməlidir.

Kompüter texnologiyasının təhsilə və biliyə, həmçinin kitabxanalardan və informasiya xidmətlərindən ağıllı istifadəyə açar olduğunu rəhbər tutaraq, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri regionlarda, xüsusilə kəndlərdə kompüter savadsızlığına qarşı aktiv mübarizə aparır, insanların sosiallaşmasında, fermerlərə, kiçik və orta sahibkarlığa informasiya təminatının həyata keçirilməsində mühüm işlər görür.

İnformasiya cəmiyyətində informasiyaya giriş imkanına malik olmaq və onu başa düşmək – insanın əsas hüquqlarından biridir. Bu hüququn təmin olunmasında Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin mühüm rolu vardır. Mərkəzləşdirilmiş Kitabxana Sistemləri regionlarda istifadəçiləri hərtərəfli biliklə təmin edən informasiya mərkəzinə çevrilməkdədir. Onlar informasiyanı toplayır, sistemləşdirir və istifadəyə verir və həmçinin digər informasiya mənbələrinə çıxışı təmin edir. Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin mühüm vəzifələrindən biri də yerli və diyarşünaslıq informasiyanın toplanmasında və ona sərbəst çıxışın təmin edilməsidir. Onlar, həmçinin müxtəlif informasiyaların alınmasını təmin etməklə region əhalisinə vacib problemlərin müzakirəsində və həllində iştirak etməyə kömək edir.

İnformasiya həcminin böyük artımı və informasiya texnologiyaları sahəsində davamlı inkişaf informasiyanın forma və daşıyıcılarının müxtəlifliyinə, mübadilə və informasiyaya çıxış üsullarının dəyişməsinə səbəb olmuşdur. Bu dəyişikliklər Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin fəaliyyətinə və onların xidmətlərinə nəzərə çarpacaq dərəcədə təsir göstərir. Mərkəzləşdirilmiş Kitabxana Sistemləri informasiyanı ənənəvi formatlarda təqdim etməklə yanaşı, On – Line informasiya xidmətinə çıxışın vacib nöqtəsi olaraq qalmaqdadır.

Mərkəzləşdirilmiş Kitabxana Sistemləri fəaliyyət göstərdiyi regionda cəmiyyətin bütün qruplarının, yaşından, sağlamlıq vəziyyətindən, insanların iqtisadi və sosial vəziyyətindən asılı olmayaraq tələbatını ödəmək qabiliyyətinə malik olmalıdır. Bununla yanaşı o, uşaqların və gənclərin tələbatının ödənilməsində xüsusi cavabdehlik daşıyır. Əgər uşaqlar biliklərin mənimsənilməsi və bədii yaradıcılıqla tanışlıq prosesinə erkən yaşdan ruhlandırılarsa, onlar özlərinin bütün həyatını zənginləşdirmək və cəmiyyətə fayda vermək üçün şəxsiyyətin inkişafının bu vacib elementlərindən istifadə edəcəklər. Uşaqlar, həmçinin valideynləri və başqa böyükləri kitabxanalara baş çəkməyə təhrik edəcəklər. Həmçinin, o zəruridir ki, bilik öyrənilməsi sahəsində çətinlikləri olan cavan insanlar kitabxanalara baş çəkə bilsinlər və oradan tədris materialları götürsünlər.

Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin vacib vəzifələinrdən biri də cəmiyyətin mədəni və bədii inkişafına diqqətin yönəlməsidir. Buna nail olmaq üçün uyğun yerli və ərazi təşkilatları ilə birgə əməkdaşlıq etmək, mədəni tədbirlər üçün yerlər ayırmaq lazımdır və mədəni proqramlar həyata keçirilməli və çalışılmalıdır ki, mədəni maraqlar kitabxana materiallarında öz əksini tapsın. Onların real töhfəsi cəmiyyətin rəngarəng mədəniyyətini əks etdirməkdir. O, materialları cəmiyyətin danışdığı və oxuduğu dildə təqdim etməli və mədəni əlaqələri qorumalıdır

Mərkəzləşdirilmiş Kitabxana Sistemləri sosial görüş yeri kimi də vacib rol oynayır. Bu, xüsusilə, belə yerləri az olan cəmiyyət üçün vacibdir. Kitabxanalardan yaradıcı işlərin tədrisi və asudə vaxtın tələbatını ödəmək üçün istifadə etdikdə insanlara pozitiv sosial təcrübəni təmin edən qeyri-formal əlaqələrə girmək imkanı yaranır.

Mərkəzləşdirilmiş Kitabxana Sistemləri cəmiyyətdə insan təcrübəsinin və fikrinin bütün spektrlərini əks etdirmək imkanına malik olmalıdır və senzuranın tətbiqi risqinə məruz qalmamalıdır. Ölkəmizdə informasiya azadlığı haqqında qəbul edilən qərarlar bu hüququn həyata keçməsinə kömək edir. Kitabxanaçılar və kitabxana idarə orqanları insanların bu əsas hüquqlarını qorumalıdırlar və Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin informasiya resurslarına çıxışı məhdudlaşdırmaq məqsədilə kənardan ayrı – ayrı şəxslərin və qrupların təsirinə düşməməlidirlər.





Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin ən başlıca prinsiplərindən biri ondan ibarətdir ki, onun xidmətləri hamı üçün təqdim olunmalıdır və bir qrup insanların digər qrup insanlara ziyan vurması ilə məhdudlaşmamalıdır. Təcili tədbirlət görmək lazımdır ki, azlıq təşkil edən qruplara bu və ya hər hansı bir səbəbdən, məsələn, dil azlığı cəhətdən, fiziki və hərəkət çatışmazlığı olan insanlar və ya uzaq rayonlarda yaşayıb kitabxanaya gələ bilməyənlər üçün bu xidmətlər bərabər təqdim edilsin. Maliyyələşmənin səviyyəsi, göstərilən xidmətlərin həcmi, kitabxana binasının daxili planlaşdırılması və iş saatı elə təyin olunmalıdır ki, ümumi giriş konsepsiyası əsas prinsip olmalıdır.

Fondların formalaşdırılması hamı üçün çıxış prinsipinə əsaslanmalıdır və xüsusi qrup müştərilər üçün rahat formatda olan materiallara – məsələn, Brayl şrifti ilə yığılmış kitablara və ya korlar üçün "Danışan kitablar"a çıxışı təmin etməlidir. Kitabxana fonduna və ya başqa informasiya mənbəyinə, kitabxana daxilində olduğu kimi uzaq rayonlarda da internetə kütləvi çıxışa imkan verən informasiya və kommunikasiya texnologiyalarından istifadə etmək lazımdır.

Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin vəzifələrinin həyata keçirilməsinə yönəldilən tədbirlərin planlaşdırılmasında əsas diqqət onun xidmətlərinə verilməlidir. Öz oxucularının tələblərini qane etmək üçün onlar bir sıra xidmətlər təklif edir ki, bunlardan bəziləri kitabxana daxilində, digərləri isə kitabxanadan kənarda həyta keçirilir. Xüsusilə informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə xidmət göstərmək, həmçinin kitabxana və başqa informasiya materiallarının birbaşa evə və iş yerlərinə çatdırılmasına geniş imkanlar açır.

Az əhalisi olan rayonlarda xidmət göstərmək üçün müxtəlif nəqliyyat vasitələrindən istifadə olunmalıdır. Hər hansı fiziki qüsur və hərəkət məhdudiyyəti səbəbindən, nəqliyyatın olmaması üzündən kitabxanalara gələ bilməyən insanlara onların harada yaşamalarından asılı olmayaraq ya evlərinə, ya da iş yerlərinə kitabxana və informasiya xidmətləri göstərilməlidir. "Mobil kitabxana" avtomobildə və ya da avtobusda yerləşdirilir və təkcə kitablar deyil, həm də multimedia materialları və internetə çıxış təklif edirlər. Internetə çıxışlı mobil kitabxanaları "infomobil" adlandırırlar.

Öz vəzifələrini uğurla yerinə yetirmək üçün Mərkəzləşdirilmiş Kitabxana Sistemləri kifayət qədər resurslara malik olmalıdır. Bu o deməkdir ki, o, materialları istənilən formatda təqdim etməlidir və müntəzəm olaraq onları ayrı-ayrı vətəndaşların və qrupların artan tələbatını ödəmək məqsədilə dəyişdirməlidir. Bu isə köhnəlmiş və ya istifadəyə yararsız sənədlərin və materialların yenisi ilə əvəz olunması, mümkün olan yerdə yeni informasiya texnologiyalarının cəlb edilməsi ilə həyata keçirilməlidir. Bundan başqa, cəmiyyətin həyatında həqiqətən vacib rol oynamaqdan ötrü Mərkəzləşdirilmiş Kitabxana

Sistemləri kifayət qədər təhsilli personalla komplektləşdirilməli və tələb olunan istənilən xidməti göstərmək üçün kifayət qədər vasitələrə malik olmalıdır.

## ƏDƏBİYYAT:

*1. Xələfov A.A. Cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi rolu // Müasir informasiya – kommunikasiya texnologiyası jurnalı. 2005. № 5.*

*2. Xələfov A.A., Mehdiyeva N.D. Müasir dövrdə kitabxana fəaliyyətinin əsas istiqamətləri.//Kitabxanaşünaslıq və biblioqrafiya.- Bakı: 2005. №1. s. 3-10.*

*3. Kazımov R. İnformasiyalaşmış cəmiyyət və kitabxanaların vəzifələri // Müasir informasiya – kommunikasiya texnologiyası jurnalı.- 2005.- № 5. s. 42-46.*

*4. Халафов А.А., Кязимов Р.А., Курбанов А.И. Использование Интернет в библиотеках Азербайджана // Материалы конференции "Библиотеки в мировом информационном и интеллектуальном пространстве."-М., 2001, с.99-100.*

**Information society and library systems**

**Azad Gurbanov, Gunel Gasimzade**

***Summary***

*The article analyzes the activity, Centralized Library Systems the work to be done. in the information society. For the implementation of their duties and responsibilities in the new society are studied.*

**Key words:** *information society, Centralized Library System, formal and non-formal education, access to information*

**Информационное общество и централизованные библиотечные системи**

**А. Курбанов, Г. Касимзаде**

***Резюме***

*Статья является анализом деятельности Централизованных Библиотечных Систем в информационном обществе. Рассматриваются задачи для реализации своих функций и обязанностей в новом обществе, в новых условиях.*

**Ключевые слова:** *информационное общество, Централизованная библиотечная система, формальное и неформальное образование, доступ к информации*